*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
https://doi.org/ 10.46868/atdd.2023.




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received :10.07.2023*
*Kabul tarihi |Accepted: 15.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Sona Məhərrəmova**

https://orcid.org/0000-0002-7816-4916
*Head of the Department of History and its Teaching, Sumgayit State University, docent, Azerbaijan, oguz.gunhan@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məhərrəmova, S. (2023). Heydər Əliyevin Təhsil Konsepsiyası və Davamlı İnkişaf Meylləri. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 230-242.

# Heydər Əliyevin Təhsil Konsepsiyası və Davamlı İnkişaf Meylləri

***Xülasə***

*2023-cü il Azərbaycanda əbədiyaşar Heydər Əliyev ili elan olunubdur. Azərbaycanın dövlətçilik tarixində xalqın Ümummilli Lideri səviyyəsinə qalxan yeganə ŞƏXSİYYƏT – bənzərsiz idarəçilik təctübəsi, liderlik kefiyyətləri, vətəninə, millətinə sonsuz məhəbbətlə bağlı olan Müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyevdir. O, XX əsrin 60-cı illərinin sonundan etibarən Azərbaycanda bütün sahələr üzrə -* siyasi-hüquqi, *iqtisadi-sosial, milli və bəşəri dəyərləri gözardı etmədən mədəni əsaslarını yenidən yaradan, inkişafını təmin edən fenomenal* liderdir. *Zəngin*

*tarixi keçmişi və ənənələri olan Azərbaycan təhsilinin inkişafının XX əsrin 70-ci ilindən sonrakı dövrü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun bütün dövrlərdə döləti idarəçilik fəaliyyətində təhsilin inkişafı prioritet istiqamət kimi əsas yer tutmuşdu. Təhsili millətin gələcəyi adlandıran Ulu Öndər cəmiyyətin inkişafında təhsilin rolunun yüksək qiymətləndirir, bu sahədə qəbul etdiyi qərarları, milli, bəşəri dəyərləri özündə əks etdirən konseptual fikirləri, tövsiyələri Azərbaycan dövlətinin, millətinin inkişafına hesablanmış Təhsil konsepsiyasını formalaşdırmış, respublikamızda Təhsil siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmiş və müəyyənləşdirməkdədir.*

**Açar sözlər:** *Heydər Əliyev, Təhsil siyasəti, islahat, keyfiyyətli kurikulum, insan kapitalı*

## Hayder Aliyev's Concept of Education and Sustainable Development Trends

### Abstract

*The only person who rose to the level of National Leader of the nation in the history of Azerbaijan's statehood is the Great Leader Heydar Aliyev, the architect and founder of Modern Azerbaijan, who has unique management experience, leadership qualities, and boundless love for his homeland and nation. Since the end of the 60s of the 20th century, he is a phenomenal leader who recreated the cultural foundations and ensured the development of Azerbaijan in all fields - political-legal, economic-social, national and human values.The period of the development of Azerbaijani education, which has a rich historical past and traditions, after the 70th year of the 20th century, is connected with the name of National Leader Heydar Aliyev. The development of Education was the main priority in his district management activities at all times. The Great Leader, who called education the future of the nation, highly appreciates the role of education in the development of society, the decisions he made in this field, the conceptual ideas and recommendations reflecting national and human values, he formed the concept of education calculated for the development of the state and nation of Azerbaijan, he defined and is defining the main directions of education policy in our republic.*

**Keywords:** *Haydar Aliyev, Education policy, reform, quality curriculum, human capital.*

### Giriş

Azərbaycanda Təhsilinin böyük tarixi keçmişi və ənənələri mövcuddur. Həmişə Azərbaycan xalqı təhsil almağa, öyrənməyə, oxumağa xüsusi əhəmiyyət vermişdir və indi də belədir. Elə bir azərbaycanlı ailəsi, valideyin yoxdur ki, övladının təhsil qayğısına qalmasın. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan bir çox sahələrdə olduğu kimi, Təhsil shəsində də dərin tənəzzül dövrünü yaşamağa başladı. Yalnız 1993-cü ildə xalqın tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ümummilli Liderimiz Heydər Əliyev bütün

sahələrdə olduğu kimi Təhsil sferasında da fundamental islahatlara başladı və bu istiqamətdə mərhələlərlə müvafiq addımlar atdı. Azərbaycan Respublikasında Təhsil sisteminin milli və ümumbəşəri dəyərlər əsasında yenidən qurulması və təkmilləşdirilməsi Ulu Öndər Heydər Əliyevin fəaliyyətində prioritet istiqamət kimi daim dövlət siyasətinin mərkəzində yer tutmuşdur. Onun Təhsil konsepsiyası nəticəsində Azərbaycanın müasir təhsil siyasəti ümummilli, tarixi-mənəvi faktorları, əvvəlki illərin mütərəqqi təcrübələrini inkar etmədən qlobal təhsil çağırışlarına, sivil dünyanın əksəriyyət tərəfindən qəbul olunmuş dəyərlərə və təcrübələrə uyğun şəkildə həyata keçirilir. Ulu Öndər Heydər Əliyevin müasir Təhsil konsepsiyası məktəblərdə və bütün təhsil müəssisələrində tədris olunan təhsilin ən son və müasir versiyası kimi milli dövlət quruculuğunda dövlətçiliyin təməl prinsiplərindən biri kimi həmişə ön planda olmuşdur.Müasir təhsil yalnız iqtisadiyyat, elm və incəsənətin ənənəvi, məşhur və akademik fənlərinə diqqət yetirmir, həm də tələbələrdə tənqidi düşüncə, dəyərlər təhsili, həyati bacarıqları, analitik düşünmə və qərar qəbul etmə bacarıqlarını inkişaf etdirməyi qarşısına hədəf qoyur. Müasir təhsil həmçinin öyrənənləri maarifləndirmək, öyrənmə prosesini daha cəlbedici və maraqlı etmək üçün ən son texnologiyalardan istifadə edir. Ulu Öndərin Təhsil strategiyasının sonrakı inkişaf mərhələsini uğurla həyata keçirən respublika prezidenti İlham Əliyevin neftdən gələn gəlirin insan kapitalına çevrilməsi yolunda atdığı addımlar və IV Sənaye İnqilabı dövrünə Azərbaycanın hazırlanması Heydər Əliyevin dahiyanə söylədəyi “Təhsil millətin gələcəyidir” ifadəsini aksiomaya çevirmişdir. Məhz Heydər Əliyevin Təhsil konsepsiyası müasir həyatın tələblərindən olan Təhsil siyasətinin məqsədlərinin formalaşdırılmasında, insan inkişaf indeksinin vacib meyarı olaraq təhsilin qlobal davamlı inkişaf məqsədlərində mühüm yer tutmasında, təhsil və iqtisadiyyatın qarşılıqlı təsirləri üzrə insan kapitalının formalaşdırılmasında dövlət siyasətinin konturlarını təşkil edir.

## 1.Ulu Öndər Heydər Əliyevin II Respubika dövründə Azərbaycanın gələcək inkişafina xidmət edən Təhsil islahatları

Təhsil ölkənin davamlı inkişafı və iqtisadi artımını təmin edən əsas faktorlardandır. Hər bir xalq gələcəyə inşa etdiyi təhsilin bünövrəsi üzərində ucalır. Bu mənada Ulu Öndər Heydər Əliyevin Azərbaycanda Təhsil konsepsiyası bu strateji sahəni sağlaqm təmələr üzərində inşa etməyə əsas yaratmışdır. Onun dövətimizin və millətimizin gələcəyinə hesablanmış Təhsil siyasətinin mahiyətini dərindən dərk etmək üçün Azərbaycanda siyasi hakimiyyətinin həm birinci, həm də ikinci dövründə bu vacib sahədə həyata keçirdiyi

genişmiqyaslı fəaliyyətinin (cildlərlə elmi tədqiqat əsərlərinin yazıla biləcəyi prioritet sahənin) bəzi məqamlarına diqqət yetirək.

Ulu Öndər Heydər Əliyev hələ siyasi rəhbərliyinin birinci dövründə gələcəkdə Azərbaycanın müstəqil yaşaya bilməsi üçün tarixi şəraitdən məharətlə istifadə etmiş, respublikanın bütün sahələrində olduğu kimi, Təhsilin inkişafında da yeni kefiyyət mərhələsinin əsasını qoymuşdur. XX əsrin 70-80-ci illərində dövrün sərt siyasi-ideoloji tələblərinə baxmayaraq, Vətənpərvər Liderimiz incə üstalıqla milli dəyərlərimizi qorumaqla ümumibəşər prinsiplərə əsaslanan Azərbaycanda təhsilin gələcək inkişaf meyillərinə cavab verən bazasını formalaşdırmışdı. Xüsusilə, 1982-1987-ci illərdə keçmiş SSRİ kimi nəhəng imperiyanın təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi bütün sovetlər birliyində, o cümlədən Azərbaycanda ümumilikdə təhsilin inkişafına, keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. Belə ki, bu gün Müstəqil Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil ocaqlarının – məktəbəqədər, ümumi orta və peşə, orta ixtisas, eləcə də ali təhsil müəssələrinin geniş şəbəkəsinin əksəriyyəti Heydər Əliyevin II Respublikada siyasi hakimiyyətdə olan dövründə məqsədyönlü şəkildə həyata keçirdiyi Təhsil quruculuğu siyasətinin nəticəsində yaranmış, güclü təməllər üzərində inkişaf etmişdir.

**1. 2.** XX əsrin 70-ci illərindən başlayaraq Heydər Əliyevin siyasi rəhbərliyinin birinci dövründə təkcə məktəbəqədər təhsil müəssisələrinin sayı 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı 110 mindən 147 min nəfərə çatmış, məktəbəqədər təhsillə əhatə səviyyəsi 12 faizdən 19 faizə yüksəlmişdi. Bu dövrdə məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilmiş, 35200 yerlik yeni körpələr evi-uşaq bağçası binaları tikilib istifadəyə verilmişdi (https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_xi_xidmetleri-2341676;https://www.muallim.edu.az/news.php?id=6595;https://www.muallim.edu.az/news.php?id=24908;https://www.elibrary.az/docs/QAZET/qzt2017_1705.htm;https://aztehsil.com/news/4890-misir-mrdanov-byk-rhbrin-hyat-) Ümumi orta təhsildə yeni kefiyyət dəyişikliyinə keçilmiş, 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", 1973-cü ildə isə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" ardıcıl qərarlar qəbul edilmişdir. Nəticədə qısa bir zamanda ümumtəhsil məktəblərinin şəbəkəsi daha da genişlənmiş, əsaslı keyfiyyət dəyişiklikləri baş vermişdi. 1979-cu ildə ümumtəhsil məktəblərinin sayı 3 dəfədən çox artaraq 2117-yə, 1982-ci ildə isə 4267-yə çatdırılmışdı. Ümumtəhsil məktəblərində təhsil alan şagirdlərin sayı isə 1970-ci ildəki 368 mindən 1980-ci ildə 710 minədək artmışdı. 1970-80-ci illərdə respublikada 683,1 min şagird yerlik 1191 yeni məktəb binası tikilib istifadəyə

verilmişdi. Bu sahədə həyata keçirilən tədbirlər məktəblərdə növbəlilik üzrə göstəricilərin yaxşılaşdırılmasına güclü təkan vermiş, şagirdlərin ikinci növbədə oxuma göstəricisi 1970-ci ildəki 40,2 faizdən 1980-ci ildə 28,1 faizə enmişdi https://www.muallim.edu.az/news.php?id=6595;tr.linkedin.com/pulse/ümummilli-lider heydər-əliyevin-milli-təhsil-rolu- https://www.muallim.edu.az/news.php?id=24908). Peşə təhsilinin inkişafının yüksəliş dövrü də məhz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə təsadüf edir. Həmin illərdə peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı üzrə strategiya müəyyənləşdirilmiş, 1970-ci ildə 76 peşə məktəbi fəaliyyət göstərmiş və həmin müəssisələrdə 40,9 min şagird təhsil almışdısa, bu göstərici müvafiq olaraq 1980-ci ildə 173 məktəb və 99,8 min şagirdə, 1982-ci ildə isə 184 məktəbə və 230 peşə üzrə 110 min şagirdə çatdırılmışdı.

**2.Ulu Öndərin Respublikaya II rəhbərliyi dövründə təhsil**

Ulu Öndərin Respublikaya II rəhbərliyi dövründə ümumitəhsil müəssisələrində şagirdlərin dərsliklərlə təminatı sahəsində böyük tədbirlər həyata keçirilmiş, 1978-ci ildən şagirdlərin dərsliklərlə pulsuz təminatına keçilmişdi. Heydər Əliyev o dövrdə də müəllimlərin fədakar əməyini və fəaliyyətini yüksək qiymətləndirirdi. Belə ki, keçən əsrin 70-ci illərində 817 nəfər "Əməkdar müəllim” fəxri adı almış, 3 nəfər müəllim ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ötən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və yüksəkixtisaslı kadr hazırlığı istiqamətində böyük işlər görülmüşdü. 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, yüzlərlə yeni ixtisaslar açılmış, kafedralar, problem laboratoriyaları fəaliyyətə başlamışdı. Əgər 1960-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə, 450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1982-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi. Ümumiyyətlə, bu illərdə ali məktəblərdə təhsilalanların sayı 70 mindən 100 minə yüksəlmiş, ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikilmiş, dəfələrlə ali təhsil müəssisələrinə gözlənilmədən səfərlər etmiş, Azərbaycanda güclü elmi-pedaqoji kadr potensialı yaradılmışdır (https://azertag.az/xeber/Azerbaycan_tehsilininxi_xidmetleri2341676;https://www.muallim.edu.az/news.php?id=6595;https://www.muallim.edu.az/news.php?id=24908;https://www.elibrary.az/docs/QAZET/qzt2017_1705.htm;https://aztehsil.com/news/4890-misir-mrdanov-byk-rhbrin-hyat-). Ulu Öndər 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetinin 50 illik

yubleyində iştirak etmiş və Sovet imperiyasının qılıncının sağının da, solunun da kəsdiyi bir dövrdə Azərbaycan dilində geniş məzmunlu, konseptual nitq söyləmiş, ali təhsil müəssisələri qarşısında duran vəzifələrdən bəhs etmişdir. O, ana dilində söylədiyi nitqi ilə milli ruhun, milli mənliyin inkişafına təkan vermişdir. Daha sonra 1978-ci ildə Azərbaycan SSR-nin Konstitusiyasını qəbul edərkən Azərbaycan dilinin rəsmi dil kimi qəbul olunmasındakı xidmətləri ilə əzəli fikir olan azərbaycançılığın Müasir Azərbaycanda siyasi ideologiya müstəvisində inkişafını təmin etmişdir.

Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafındakı müstəsna xidmətlərindən biri də milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Məhz bu məqsədlə O, Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində 15 mindən artıq azərbaycanlı gənclərin təhsil almasına şərait yaratmış, onların gələcəkdə respublikamızın iqtisadiyyatı, elmi, təhsili və mədəniyyətinin 80-dən çox sahəsi, 250-dən çox ixtisası üzrə yüksəkixtisaslı kadrlar kimi ehtiyacının qarşılanmasında böyük töhfə olmuşdur (https://www.muallim.edu.az/news.php?id 6595;tr.linkedin.com/pulse/ümummilli-lider-heydər-əliyevin-milli-təhsil-rolu-bakhtiyar aliyev). Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında Təhsil sahəsində əvəzsiz xidmətlərindən biri, mən deyərdim birincisi milli hərbi kadrların yetişdirilməsidir. Tarixdən məlumdur ki, əvvəllər çar Rusiyası, sonra da onun davamı olan Sovet imperiyası azərbaycanlıların peşəkar hərbiçilər kimi yetişməsinə, hərb sənətinə yiyələnməsinə imkan verməmişdilər. Yalnız Heydər Əliyev dühası bu problemi qətiyyətlə həll etmiş, Onun birbaşa rəhbərliyi və qayğısı ilə 1972-ci ildən etibarən hər il yüzlərlə gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilmiş, həmçinin uzaqgörənliklə Azərbaycanda orta və ali hərbi təhsil sisteminin yaradılmasının xüsusi əhəmiyyətini nəzərə alaraq Bakıda C.Naxçıvanski adına Hərbi Məktəbi yaratmış, bununla da hərbi məktəblər şəbəkəsinin sonrakı inkişafına nail olmuşdur. Məhz Heydər Əliyevin rəhbərliyi ilə yaradılmış hərbi məktəblərdə təhsil alan və ya hərbi təhsil almağa göndəriən zabitlər sonradan müstəqil Azərbaycanın Milli Ordu quruculuğu işlərində və Ermənistanın təcavüzünə qarşı mübarizədə yaxından iştirak edirlər.

### 2.1 Ümummilli Lider Heydər Əliyev Müstəqil Azərbaycan Respublikasının Təhsil konsepsiyasının banisidir

1991-ci il oktyabrın18-də respublikamız müstəqillik əldə etsə də Ermənistanın öz havadarlarının himayəsi altında ölkəmizə qarşı əsassız ərazi iddiaları və təcavüzü, 20 faiz torpaqlarımızın işğalı, dədə-baba torpaqlarından 1 milyondan artıq azərbaycanlının qaçaraq

məcburi köçkün və qaçqına çevrilməsi, ağır sosial-iqtisadi vəziyyət, daxili çəkişmələr və vətəndaş müharibəsi təhlükəsi ilə Azərbaycanı olum və ya ölüm dilemması qarşısında qoymuşdur.

Xalqın təkidli tələbi ilə Naxşıvandan Bakıya dəvət olunan Ulu Öndər Heydər Əliyevin Azərbayanda siyasi hakimiyyətə qayıtması ilə Azərbaycan parçalanmaq təhlükəsindən xilas oldu. O, tezliklə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu sahəsində böyük siyasi və dövləti iderəetmə təcrübəsinə əsaslanaraq bütün sahələr üzrə Azərbaycanın inkişafını təmin edən islahatlar həyata keçirdi. Bu islahatların içində Təhsil sahəsi prioritet təşkil edirdi. Təhsilə, onun bütün sahələrinə və problemlərinə dərindən bələd olan Heydər Əliyev 1993-cü ildən başlayaraq müəllifi olduğu Təhsil konsepsiyası əsasında milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla Azərbaycana layiqli, savadlı, vətənpərvər vətəndaşların yetişdirilməsi istiqamətində qərarlar qəbul etdi, islahatların hüquqi bazasını yaratdı.

Belə ki, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyanın 42-ci maddəsində vətəndaşların təhsil hüququ təsbit edildi (https://e-qanun.az/framework/8759).

1996-cı ildə Ulu Öndərin təşəbbüsü ilə "Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması barədə 1979-cu il 21 dekabr tarixli Konvensiyaya qoşulmaq haqqında", həmçinin 1997-ci ildə "Avropa regionunda ali təhsil sahəsində ixtisasların (kvalifikasiyaların) tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə" qanunlar qəbul edildi. Bu, Azərbaycan milli təhsil sisteminin tarixi ənənələrə və əldə olunmuş nailiyyətlərə əsaslanaraq tədricən Avropa təhsil məkanına inteqrasiyasına hazırlıq idi(tr.linkedin.com/pulse/ümummilli-lider-heydər-əliyevin-milli-təhsil-rolu-bakhtiyar-aliyev; https://www.muallim.edu.az/news.php?id=24908). Müstəqilliyimizin ilkin illərində ümumtəhsil məktəblərində dərslik problemi vardı. Ulu Öndər bütün məktəblərin dünya standartlarına cavab verən dərsliklərlə təmin edilməsi barədə qərar qəbul etdi. Əvvəl I-IV siniflərin, sonra isə yuxarı sinif şagirdlərinin dərsliklərinin dövlət vəsaiti hesabına çap olunması və şagirdlərə pulsuz paylanmasını təmin etdi. Daha sonra Təhsil sahəsində məqsədyönlü və ardıcıl dövlət siyasəti nəticəsində qısa müddətdə ümumtəhsil məktəblərinin şagirdləri üçün 152 adda yeni dərslik, 50-dək adda dərs vəsaiti hazırlandı və ümumtəhsil məktəblərində istifadə edilən 182 adda dərsliyin 83 faizi yeniləndi (https://www.muallim.edu.az/news.php?id=6595).

1998-ci il martın 30-da ölkə rəhbərinin Sərəncamı ilə Təhsil sahəsində İslahatlar üzrə Dövlət Komissiyası yaradıldı. Komissiya Heydər Əliyevin konseptual tövsiyyələri əsasında

ölkədə Təhsil sahəsində İslahatlar Proqramının hazırlamalı idi. İslahat Proqramı Təhsilin sistemini XXI əsrin qlobal çağırışlarına, iqtisadi inkişafın dayanıqlılığına və davamlı olmasına, həmçinin Avropa əmək bazarının tələblərinə və ona çıxışa təminata yaratmağı nəzərdə tutmuşdur.

1999-cu il iyunun 15-də – Milli Qurtuluş Günündə Təhsil Sahəsində İslahat Proqramını xüsusi sərəncamla təsdiq etdi (https://e-qanun.az/framework/5363). və islahatların əsas məqsədini müəyyən etdi. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Azərbaycanın təhsil sistemində keçmiş ənənələrdən, nailiyyətlərdən, böyük potensialdan istifadə edərək təhsil sistemini yeni tələblərə uyğunlaşdırmaq, islahatlar həyata keçirmək işi başlanmışdır və bunlar da öz müsbət nəticəsini verir" (Həsənov, Rüstəmova, Babyeva, Kurikulum-Metodika-Pedaqogika, 2020). Üç mərhələdən ibarət olan bu islahat proqramı müddətinə, əhatə dairəsinə və miqyasına görə ən böyük Dövlət Proqram idi Bu islahat proqramı müstəqil dövlətin təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulmasının təmin edilməsinə yönəlmişdi.

### 2.2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərmanı

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 13 iyun 2000-ci ildə Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində hazırlanmasını və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı (https://e-qanun.az/framework/767).Bu fərmanla ali təhsil müəssisələrinin şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi. Sənədə əsasən, məktəbəqədər təhsil müəssisələri və ümumi təhsil müəssisələrinin ibtidai sinifləri üçün pedaqoji kadrlar hazırlanacaq, müəllimlərin əlavə təhsili, müasir tələblərə cavab verən attestasiya mexanizmi yaradılacaq, təhsil sistemində yeni şəraitə uyğun idarəetmə mexanizmi qurulacaq. Təhsil müəssisələrinin özünüidarəetmə əsasında fəaliyyətinin təşkili, təhsil müəssisələrində verilən təqaüdlərin stimullaşdırıcı rolunun artırılması da məhz bu sənədin nəzərdə tutduğu başlıca vəzifələr idi. Fərmanın icrası ilə tədris prosesinin səmərəliliyini artırmaq da planlaşdırılırdı. Nəticədə icbari ümumi orta təhsilin optimal müddətinin, müəllimlərin illik və həftəlik tədris yükünün minimum həddi müəyyənləşdirildi, təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsil işçilərinin sosial

müdafiəsinin gücləndirilməsi, təhsilin keyfiyyətinə nəzarət mexanizminin hazırlanması reallaşdırılırdı.

"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz", – deyən Prezident Heydər Əliyev təhsil sahəsində islahatların daha da sürətləndirilməsi məqsədilə 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam imzaladı. Bununla ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazanın möhkəmləndirilməsinə zəmin yaradıldı (https://www.muallim.edu.az/news.php?id=24908).2003-cü ilin fevralında imzalanan "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Sərəncam isə ümumtəhsil müəssisələrinin şəbəkəsinin müasirləşdirilməsində və genişləndirilməsində xüsusi rola malik oldu.

Milli təhsil sistemi üçün Azərbaycan əlifbasının qəbulu və Azərbaycan dilinin inkişaf etdirilməsi vacib, olduqca əhəmiyyətli hadisə idi. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycan Dili Günü (1 avqust) təsis edilməsi haqqında" 9 avqust 2001- ci il, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2 yanvar 2003-cü il tarixli fərman (https://azertag.az/xeber/Azerbaycan_tehsilininxi_xidmetleri2341676;https://www.muallim.edu.az/news.php?id=6595;https://www.muallim.edu.az/news.php?id=24908;https://www.elibrary.az/docs/QAZET/qzt2017_1705.htm;https://aztehsil.com/news/4890-misir-mrdanov-byk-rhbrin-hyat-). gənc nəslin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunmasında böyük rol oynad, həmçinin azərbaycançılıq məfkurəsinin, milli ruhun, vətənpəvərlik hislərinin yüksəlməsinə xidmət etdi. Ulu Öndər kimi milli mənsubiyyəti ilə qürur duymaq – "Mən fəxr edirəm ki, Azərbaycanlıyam" – gənclərdə Azərbaycan dilinin, tarixinin, ədəbiyyatının, coğrafiyasının, öyrənilməsinə marağı və diqqəti artırmışdır.

Ulu Öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər vermiş, "Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram" (http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm). demiş, bu yanaşmadan çıxış edərək müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı davamlı qərarlar qəbul etmişdir. Heydər Əliyevin bir özəlliyi də ondan ibarət idi ki, hər yeni tədris ilinin ilk günündə məktəblərdə olur, müəllim və şagirdlərlə görüşür, onları dinləyir və öz müdrik tövsiyələrini verirdi. Ulu Öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI

Qurultayında bu barədə danışaraq deyirdi: “Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq” (http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm).

**3. Öyrədici innovativ mərhələdən insan kapitalının formalaşdırımasına doğru**

2005-ci il mayın 19-da Norveçin Berqen şəhərində Azərbaycanın Boloniya prosesinə qoşulması ilə bağlı rəsmi sənəd imzalandı. 2006-cı ildə "Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulumu)" hazırlanaraq Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş, 2010-cu ildə “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)” adı ilə təkmilləşdirilmiş və pedaqoji ictimaiyyətin istifadəsinə verilmişdir (http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63636.htm). Elm, texnika və texnologiyanın sıçrayışlı inkişafının baş verdiyi müasir dünyada durmadan dəyişən həyat şəraitinə çevik şəkildə uyğunlaşmaq, yeni şəraitə uyğun öz qabiliyyətlərini gerçəkləşdirməyi bacarmaq, özünüinkişafa və özünütəkmilləşdirməyə hazır kompitent kadr olmaq zəruridir.

Məlum olduğu kimi, biz durmadan və sürətlə yenilənən informasiya cəmiyyətində yaşayırıq. Əldə olunan biliklər mənimsənilib tətbiq olunana qədər “köhnəlir” və bu da insanlara mövcud problemlərin həlli üçün qazandıqları biliklərlə kifayətlənməyə imkan vermir. Həyatda baş verən dəyişikliklərə uyğunlaşmaq və səmərəli fəaliyyət göstərmək üçün həyatı boyu bilikləri müstəqil əldə etmək bacarığına sahib olmaq, ömürboyu təhsil (lifelong learning) insanların zəruri ehtiyacına çevrilmişdir. Əhalinin əksəriyyətinin müasir informasiya texnologiyalarından istifadə etməklə informasiya və onun ən ali forması olan biliyin istehsalı, saxlanması, emalı və ötürülməsi ilə məşğul olması, cəmiyyətin həyatında informasiya və biliyin rolunun artması, effektiv informasiya-kommunikasiya əlaqələrini təmin edən qlobal informasiya fəzasının yaradılması müasir post-sənaye informasiya cəmiyyətinin əsas spesifik xüsusiyyətləridir (Stanton, 2019; Som, 2012; http://static.bsu.az/w1/pdf2022elmi%20j/Humanitar_2021_4.pdf).Azərbaycanda İnsan kapitalının inkişaf etdirilməsi fiziki kapitalın yaradılmasına deyil, bilik iqtisadiyyatının formalaşmasına yönəlmişdir. Bilik iqtisadiyyatında həlledici rol əmtəə və xidmətlərin

istehsalından intellektual resurslara və onlar üzərində qurulmuş imkanlara məxsusdur. Əvvəlki dövrlərdə də hər hansı iqtisadi fəaliyyət növü biliklərə əsaslanırdı, lakin indi istehsal prosesində fundamental dəyişikliklər baş vermişdir. Onun ayrılmaz tərkib hissəsi olan innovasiyalar və informasiya resursları artıq ictimai sərvətin yaradılmasında üstünlük təşkil edir. Biliklər getdikcə dövlətlərin davamlı inkişafının zəmanətinə çevrilmiş, biliklərin əldə edilməsi və tətbiqi isə ölkənin rəqabətliliyinin əsas amili olmuşdur.

**Nəticə**

Ümummilli Lider Heydər Əliyevin Təhsil Konsepsiyasının 1999-2003-cü illər zaman kəsiyindəki mərhələsi olan "Öyrədici innovativ mərhələ"nin həyata keçirilməsinin nəticəsində bütün pillə və səviyyələr üzrə təhsilin keyfiyyət göstəriciləri yüksəlmiş, Azərbaycan təhsilinin, onun maddi-texniki bazasının uzunmüddətli, dinamik inkişafı təmin edilmişir. Ulu Öndərin Təhsil Konsepsiyasını müasir qlobal çağrışlara uyğunlaşdıran Azərbaycan Prezidenti İlham Əliyev yeni dövrdə yeni təhsil sistemi, o cümlədən yeni ali təhsil sisteminin yaradılması məqsədilə insan kapitalının yaradılması konsepsiyasını irəli sürdü. Təhsilin inkişaf etdirilməsi ilə bağlı yeni dövlət proqramları təsdiq edildi. Azərbaycanda 100 faiz savadlılığı təmin edən milli təhsilimiz özünün yeni mərhələlərini 2004-2007-ci ildə "Hazırlıq mərhələsi"ni, 2008-2013-cü ildə isə "Tətbiqetmə mərhələsi"ni uğurla başa vurdu.

Hər bir ölkənin milli sərvətinin mühüm hissəsini insan kapitalı təşkil edir. Ulu Öndərin siyasi varisi Prezident Ilham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası [4], "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" hər biri özündə insan kapitalının bilik və innovasiyalara əsaslanan inkişaf prioritetlərini əks etdirir. Azərbaycanda insan kapitalının davamlı inkişafının təminatı, təhsilin və ixtisaslı kadr hazırlığının əmək bazarının müasir tələblərinə uyğunlaşdırılması məqsədilə səmərəli və ardıcıl işlər görülür. Müasir dövrdə istənilən ölkənin dayanıqlı iqtisadi inkişafının və məhsuldarlığının artmasında innovasiyalar və texnologiyalar mühüm rol oynayır. Azərbaycanda elmin və təhsilin iqtisadiyyatla əlaqəsinin gücləndirilməsi Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 4 may tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"da da əks olunmuşdur. Azərbaycan Respublikası prezidentinin təsdiq etdiyi "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nda qeyd olunur ki, cəmiyyətin tərəqqisi bütün dövrlərdə bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuş, mövcud tələbat təhsilin inkişafını

sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur. Həmin sənəddə həmçinin göstərilir ki, BMT XXI əsri "təhsil əsri" elan etmişdir. Bu baxımdan yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında ali təhsilin rolu danılmazdır (http://static.bsu.az/w1/pdf2022elmi%20j/Humanitar_2021_4.pdf).

"Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasında deyilir ki, indidən ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsası qoyulmalı, bunun üçün həlledici olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir. Şəhər mühiti insan kapitalının inkişafı və bilik iqtisadiyyatının qurulması üçün yaxşı zəmin hazırlayır (Azərbaycan 2020: Gələcəyə baxış. İnkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı). Böyük dövlət adamı Heydər Əliyevin Azərbaycan respublikası və milləti qarşısında xidmətləri əvəzolunmazdır. Dahi, fitri istedada malik şəxsiyyət olan Heydər Əliyevin bütün sahələr üzrə, o cümlədən Təhsil sahəsində uzaqgörən strategiyası dövlətimiz və xalqımızın uğurlu gələcəyə gedən yollarında əbədi məşəl kimi daim işıqlandırmaqda davam edəcək.

**Ədəbiyyat**

A. Stanton, Elizabeth (February 2007). The Human Development Index: A History". *PERI Working Papers*: 14–15. Archived from the original on 28 February 2019. Retrieved 28 February 2019.

Azərbaycan 2020: Gələcəyə baxış. İnkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli fərmanı.

Som, O. (2012). Innovation without R&D: Heterogeneous Innovation Patterns of Non-R&D-Performing Firms in the German Manufacturing Industry.

Həsənov, İ., Rüstəmova, A., Babyeva, N. (2020). Kurikulum. Metodika. Pedaqogika. Mücrü.

https://e-qanun.az/framework/5363

https://e-qanun.az/framework/767

https://e-qanun.az/framework/52506

https://e-qanun.az/framework/8759

https://azertag.az/xeber/Azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_Heyder_Aliyevin_tarixi_xidmetleri-2341676

https://www.muallim.edu.az/news.php?id=6595

https://www.muallim.edu.az/news.php?id=24908

http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63636.htm

http://www.e-qanun.az/framework/5363

https://modern.az/az/news/320385

https://www.elibrary.az/docs/QAZET/qzt2017_1705.htm

https://aztehsil.com/news/4890-misir-mrdanov-byk-rhbrin-hyat-drslri.html

https://old.xalqqazeti.com/az/news/politics/103879

http://static.bsu.az/w1/pdf2022elmi%20j/Humanitar_2021_4.pdf

http://www.anl.az/down/meqale/az_muellimi/2010/dekabr/145271.htm